# Abdulla Şaiqin Mənzil Muzeyində Dəyirmi Masa

4 iyul 2019-cu il saat 14:00-da Abdulla Şaiqin Mənzil Muzeyində UNESKO-nun Dünya İrs Komitəsinin 43-cü sessiyası çərçivəsində "Ədəbiyyatın sabahına gedən yol" mövzusunda Dəyirmi Masa keçirildi. Tədbirə Abdulla Şaiqin Mənzil Muzeyi və Dünya Gənc Türk Yazarlar Birliyi təşkilatçılıq etdi.

Abdulla Şaiqin Mənzil Muzeyinin direktoru, sənətşünaslıq üzrə fəlsəfə doktoru Ülkər xanım Talıbzadə Dəyirmi masada iştirak edən qonaqları salamladı və tədbirin məhz Abdulla Şaiqin Mənzil Muzeyində keçirilməsinin təsadüfi olmadığını vurğuladı; hər zaman gənc yazarlara dəstək olması, onlara sənətin sirlərini öyrətməsi ilə yaddaşlarda qalan sevimli ədibimizin sənət ocağına çevrilmiş mənzilində tədbirin keçirilməsinin rəmzi anlam daşıdığını bildirdi. Ardınca iştirakçılar AŞMM-nin ekspozisiyasını ziyarət etdilər. Muzeyin bələdçisi Elminaz Məmmədli Abdulla Şaiqin həyat və yaradıcılığını əks etdirən eksponatlar haqqında məlumatlar verdi, ziyarətçiləri maraqlandıran sualları cavablandırdı.

Ülkər xanım Talıbzadə yenidən Dəyirmi masa ətrafına toplaşan qonaqları təqdim etdi və sözü ADPU və BDU-nun dosenti, AYB-nin və DGTYB-nin üzvü, şairə və ədəbiyyatşünas, filologiya üzrə fəlsəfə doktoru Təranə Turan Rəhimliyə verdi. T.T.Rəhimli Dünya Gənc Türk Yazarlar Birliyinin yaranması, fəaliyyəti və nəşrləri barədə danışdı. O, türk yazarlarının Türk dünyasında tanınmaları baxımından Birliyin fəaliyyətinin əhəmiyyətini vurğuladı.T.T.Rəhimli turançılıq ideyalarının təbliği baxımından da müxtəlif layihələrə imza atan DGTYB-nin fəaliyyətini yüksək qiymətləndirdi. O, həmçinin, türk yazarlarının dünya ədəbiyyatına inteqrasiyasının gərəkliliyini də dilə gətirdi.



Diskussiyada DGTYB-nin üzvləri - Nicat Həşimzadə, Rəhim Teymurov, Nəcəf Əsgərzadə, Elvin Rizvangil, Anar Rəsul Nəzərov, Vüsal Yurdoğlu, Ramin Kolçak iştirak edirdi. Onlar gənc yazarların problemlərindən, gələcək planlarından söz açdılar. E.Rizvangil Azərbaycanda kitab industriyasının zəifliyindən danışdı və bu problemin köklərini araşdırdı: onun fikrincə, yazarlar arasında sağlam rəqabətin olmaması, dünyaya çıxmaq üçün dünya ədəbiyyatının meyarlarına uyğun əsərlərin yazılmaması əsas səbəblərdəndir.

Gənc şairlərin oxuduğu poeziya nümunələri tədbirin polemik ruhuna lirik çalar qatdı. Gənc şair Vüsal Yurdoğlu və muzeyin əməkdaşı Fəridə Məmmədova öz şeirlərini, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının II kurs tələbəsi Murad Həsənxanlı Vaqif Səmədoğlunun "Sevgilim" şeirini səsləndirdilər.

Kaspi.-2019.-6-8 iyul.-S.9.